DOI:10.30546/gdu.3.2024

*TARİX, ANTROPOLOGİYA VƏ SİYASİ ELMLƏR*

**UOT: 94.**

# CƏNUBİ QAFQAZ ALMAN KOLONİYALARININ TARİXİ AZƏRBAYCAN VƏ XARİCİ ÖLKƏLƏRİN TARİXŞÜNASLIĞINDA

***Ağasiyev İkram Kərim oğlu***
***AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu***
***ikram_agasiyev@bk.ru***

**Xülasə:** *Məqalədə Cənubi Qafqazda 123 il ərzində mövcud olmuş alman koloniyalarının tarixi barədə yazılan əsərlər təhlil edilmişdir.Cənubi Qafqazda ilk koloniyalar 1817-1818-ci illərdə yaradılmışdı və o vaxt onlardan iki koloniya Azərbaycanda, altı koloniya isə Gürcüstanda salınmışdı. XX əsrin 30-cu illərində koloniyaların sayı artıq 27-yə çatmışdı ki, onların 8-i Azərbaycanda, 19-u isə Gürcüstanda yerləşirdi.*

*Müəllif son 150 il ərzində Cənubi Qafqazın alman koloniyaları haqqında dünya tarixçiləri tərəfindən yazılan əsərləri təhlil edərək alman koloniyalarının tarixinin prioritet istiqamətlərini göstərmiş və bu problemlərin araşdırılmasının əhəmiyyətini vurğulamışdır.*

**Açar sözlər:** almanlar, kolonistlər, tarixşünaslıq, Cənubi Qafqaz, Yelenendorf.

**Ключевые слова:** немцы, колонисты, историография, Южный Кавказ, Елeнендорф.

**Key words:** Germans, colonists, historiography, South Caucasus, Helenendorf.

## *Giriş*

XIII əsrdən başlayan almanların kütləvi miqrasiyası tarixdə baş verən ən möhtəşəm, dünyanın siyasi xəritəsinə, onun etnik, konfessional tərkibinə önəmli təsir etmiş ən güclü əhali miqrasiyalarından biri olmuşdur. XX əsrin ortalarına qədər davam etmiş bu proses geniş coğrafi areala malik olmuş, Şimali və Cənubi Amerikanı, Afrikanı, Avstraliyanı, Ön Asiyanı, Mərkəzi Avropadan tutmuş Uzaq Şərqə qədər böyük bir məkanını əhatə etmişdir. Göründüyü kimi, almanların məskunlaşması ayrı-ayrı istiqamətlərdə getmiş, müxtəlif dövrlərdə, müxtəlif regionlarda bu prosesin xarakteri, məqsədləri, məzmunu, sosial və siyasi bazası eyni olmamışdır. Əhalinin bu qlobal yerdəyişməsi prosesində milyonlarla alman əhalisi iştirak etmişdir.

Almanların məskunlaşmasının əsas və ilk istiqaməti Şərqi Avropa olmuşdur və bu istiqamətdə məskunlaşma prosesi keçmiş Rusiya imperiyasına daxil olan ərazilərdə xüsusi intensivliyi ilə səciyyələnmişdir. Rusiya imperiyasına daxil olan ərazilərdə almanlar Baltikyanı ərazilərdə, Şimal-Qərb rayonu (Peterburq), Mərkəzi rayon (Moskva), Cənub-Qərbi Ukrayna, Şimali Qara dəniz sahilləri, Şimali və Cənubi Qafqaz, Volqaboyu, Ural, Mərkəzi Asiya, Qərbi Sibir, Şərqi Sibir, Altay, Uzaq Şərq (Saxalinə qədər) kimi regionlarda kompakt halda məskunlaşmışlar.

Alman kolonistlərinin Cənubi Qafqazda, o cümlədən Azərbaycanda məskunlaşmasının başlanğıcı XIX əsrin əvvəllərinə təsadüf edir və 123 il – yəni 1941-ci ilə qədər Qafqazda mövcud olmuş alman koloniyaları regionun sosial-iqtisadi, mədəni həyatında mühüm rol oynamış, alman əhalisi yerli Qafqaz əhalisi ilə qaynayıb-qarışaraq regionun etnik xəritəsinin ayrılmaz elementinə çevrilmişdir. 1941-ci ilin avqustunda Qafqaz almanlarının deportasiyası, onların adı ilə bağlı toponimikanın ləğv edilməsi tarixi yaddaşın aberrasiyasına gətirdi: postsovet məkanında, o cümlədən Azərbaycanda almanların məskunlaşması, alman koloniyalarının fəaliyyəti faktı süni şəkildə unutduruldu, “alman koloniyaları” mövzusuna “məxfilik” qayəsi vuruldu, onun tədqiq olunmasına müəyyən məhdudiyyətlər qoyuldu.

DOI:10.30546/gdu.3.2024

SSRİ dağıldıqdan sonra Azərbaycan, o cümlədən digər postsovet respublikalarında sovet dövrü qadağan olunmuş bir çox mövzuların, o cümlədən alman koloniyalarının tarixinin tədqiqinə qoyulan məhdudiyyətlər aradan qaldırıldı və adı çəkilən tarixşünaslıq probleminin araşdırılması üçün münbit şərait yarandı. Bu günədək Qafqazda, eləcədə Azərbaycanda alman məskunlaşmasının tarixi həm elmi, həm ictimai, həm də siyasi dairələrdə böyük maraq doğurur və bu nöqteyi- nəzərdən regionda mövcud olmuş alman koloniyalarının tarixinin araşdırılması böyük aktuallıq kəsb edir. Qeyd etmək lazımdır ki, postsovet məkanının bir çox regionlarından fərqli olaraq Şimali və Cənubi Qafqaz almanlarının tarixinin hələ də lazımi səviyyədə tədqiq olunmayan problemləri var və keçmiş Rusiya imperiyası ərazisində almanların məskunlaşması problemi ilə məşğul olan müasir tədqiqatçılar bu məsələyə dəfələrlə diqqət yönəltmişlər [112, s.355].

Mövcud ədəbiyyatın təhlili əsasında deyə bilərik ki, çar Rusiyası, sovet, postsovet və xarici ölkələrin tarixşünaslığında Cənubi Qafqazda da mövcud olmuş alman koloniyalarının tarixini sistemli və kompleks şəkildə əks etdirən universal bir elmi əsər yazılmamışdır.

***Çar Rusiyası dövrünün tarixşünaslığı***

Hələ XIX əsrin ikinci yarısı- XX əsrin əsrin əvvəllərində Çar Rusiyasında alman kolonizasiyasına həsr olunmuş əsərlər işıq üzü görmüş, bu əsərlər birbaşa Azərbaycandakı koloniyalarıa həsr olunmasa da , almanların məskunlaşması ilə bağlı bir sıra ümumi problemlər bu əsərlərdə əks olunmuşdur. Çar Rusiyası dövründə yazılan bu əsərlərdə mövcud ideoloji cərəyanların təsiri ilə müxtəif yanaşmalar sərgilənmiş və bu səbəbdən bir – birinə zidd konsepsiyalar meydana gəlmişdir.

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində çar Rusiyasında nəşr olunan bir sıra əsərlərdə Rusiya imperiyasında almanların məskunlaşması prosesi təhlil edilmiş, alman kolonistlərinin ölkənin inkişafında oynadığı rolu müsbət qiymətləndirən konsepsiya formalaşmışdı. Bu konsepsiyanın ən parlaq nümunəsi kimi A.Klausun, Q.Q.Pisarevskinin, K.E.Lindemanın əsərlərini xüsusilə qeyd etmək lazımdır.

Rusiya imperiyası əhalisinin etnik tərkibi haqqında yazılan ilk əsərlərdən biri rus tədqiqatçısı A.Klausa məxsusdur. 1870-ci illərin əvvəllərində A.Klaus alman kolonistlərinin tarixinə aid bir-neçə əsər yazdı [98; 99]. Tədqiqatçı alman kolonistlərinin XVIII əsrin ortalarından başlayan iqtisadi, siyasi, mədəni fəaliy-yətini təhlil edərək gələcək üçün çox dəyərli təkliflər irəli sürdü. O, Cənubi Ukrayna ərazisində yaranan koloniyalarda fermer təsərrüfatının inkişafını müsbət qiymətləndirir və bu təcrübənin bütün Rusiya imperiyasında tətbiqinin zəruriliyini vurğulayırdü. A.Klausun əsərləri birbaşa Azərbaycan almanlarının tarixinə aid olmasa da, müəllifin Rusiya almanlarının sosial - iqtisadi, mənəvi həyatı haqqında nəticələri almanların məskunlaşma prosesinin ümumi qanunauyğunluqlarını və onun regional xüsusiyyətlərini ayırd etməkdə böyük əhəmiyyət kəsb edir.Q.Q.Pisarevski dərc edilməmiş arxiv materialları əsasında Prussiyadan, Bavariyadan, Hessendən və başqa alman torpaqlarından mühacirlərin Rusiyaya köçməsi prosesini araşdırmışdır [109].Onun əsərlərində mennonit dini sektasının yaranma tarixi, onların dini təliminin xüsusiyyətləri, almanların mentaliteti haqqında əvəzolunmaz məlumatlar vardır.Q.Q.Pisarevskinin mennonitlər haqqında tədqiqatları Azərbaycan almanlarının tarixinin öyrənilməsində yardımçı material rolu oynaya bilər, belə ki, XIX əsrin ikinci yarısında Şimali Qafqazda məskunlaşan kolonistlərin əhəmiyyətli hissəsini mennonitlər təşkil edirdi və bu sektanın adeptləri artıq Cənubi Qafqazda da yayılmağa başlamışdılar.

Aqronom və zooloq K.E.Lindeman XX əsrin əvvəllərində alman kolonistlərinin kənd təsərrüfatı sahəsində qazandıqları nailiyyətlər haqqında geniş həcmli material toplamış və bu materiallar əsasında bir neçə əsər yazmışdır.Bu sıradan onun yazdığı “02 fevral və 15 dekabr 1915-ci il qanunları (Rusiyada alman torpaq mülkiyyətçiliyinin məhdudlaşdırılması haqqında) və

DOI:10.30546/gdu.3.2024

onların Cənubi Rusiyanın iqtisadi vəziyyətinə təsiri" adlı əsəri böyük əhəmiyyət kəsb edir [100].Əsərdə adı çəkilən qanunların Rusiya, o cümlədən Qafqaz almanlarının təsərrüfatlarına vurduğu ziyanın miqyası göstərilir və Birinci Dünya müharibəsi illərində alman təsərrüfatlarında hökm sürən tənəzzülün səbəbləri araşdırılır.

XIX əsrin 70 – ci illərindən çar hökumətinin apardığı sərhədyanı ərazilərdə alman məskunlaşmasının məhdudlaşdırılması siyasəti ictimai şüurda almanlar haqqında əsrlərlə formalaşan müsbət stereotipin silinməsinə yönəlmişdi və bu siyasət XIX əsrin sonunda alman kolonistlərinin Rusiya dövləti üçün "zərərli ünsür" olduğunu iddia edən mürtəce, şovinist bir konsepsiyanın formalaşmasına şərait yaratdı. XIX əsrin sonu - XX əsrin əvvəllərində yazılan əsərlərin müəllifləri Almaniya və Rusiya arasındakı münaqişələrə bir-biri ilə barışmaz olan iki irqin – germanizmin və slavyançılığın əsrlərdən bəri davam edən qarşıdurması xarakteri verməyə çalışırdılar. Bu baxımdan A.A.Velitsının hələ 1893-cü ildə yazdığı "Almanlar Rusiyada. Rusiyanın cənub və şərqindəki alman koloniyalarının tarixi inkişafı və müasir durumu haqqında oçerklər" adlı əsəri daha səciyyəvidir [78].Əsasən, Rusiyanın Cənub və Şərq quberniyalarında yaranan alman koloniyalarının tarixinə həsr olunan bu əsərin hazırlanması zamanı müəllif adı çəkilən regionlarda 200-dən artıq əcnəbi koloniyada müşahidələr aparmış, nəticədə alman kolonistlərinin məskunlaşma tarixinə dair, onların iqtisadi, mədəni, dini həyatı, məişəti, adət-ənənələri, mentaliteti haqqında qiymətli materiallar toplamışdır. A.A.Velitsın alman kolonistlərinin Rusiya tarixində oynadığı rola qərəzli münasibət bəsləyərək almanları "zərərli ünsür" adlandırmışdır. Müəllifin fikrincə, alman əhalisinin Rusiyada məskunlaşmaqda əsas niyyəti burada pangermanizm ideyalarını təbliğ etmək, Almaniyanın gələcək işğalları üçün platsdarm yaratmaq olmuşdur.

Şovinist konsepsiyanın nümayəndələri Birinci Dünya müharibəsi ərəfəsində və illərində daha da fəallaşdılar və Rusiya ilə Almaniya arasında hərbi əməliyyatların aparıldığı bir şəraitdə alman kolonistlərinin tarixini qərəzli şəkildə ləkələyən əsərlər çapdan çıxdı .A. Rennikovun [113] və R.Veretyevin [80] müəllifi olduğu bu əsərlərdə, hələ XVIII əsrin əvvəllərindən Rusiyanı bürüyən alman məskunlaşması Rusiyanı silahsız işğal etmək, onu Almaniyanın tərkib hissəsinə çevirmək planlarından doğan zərurət kimi qiymətləndirilirdi.Yuxarıda adını çəkdiyimiz əsərlərin heç biri xüsusi olaraq Azərbaycan almanlarının tarixinə həsr olunmamışdır. Lakin, bununla yanaşı, Ümumrusiya xarakterli proseslərin əks olunduğu bütün bu əsərlərin Azərbaycanda alman məskunlaşmasının regional xüsusiyyətlərinin ayırd edilməsində, Azərbaycan almanlarının fəaliyyətinə siyasi qiymət vərilməsində müqayisəli mənbə rolu oynaya bilərlər.

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Rusiya tarixşünaslığında Azərbaycan almanları tarixinin ayrı-ayrı süjetlərinə yalnız məqalələr səviyyəsində diqqət yetirilmişdir.Belə ki, regionlar və hətta koloniyalar çərçivəsində aparılan araşdırmaların nəticəsi kimi müxtəlif materiallar toplularında S.Smirnovun [114], E.K.Veydenbaumun [79], N.K.Nikiforovun [106] , P.Basixinin [77], P.V.Dzyubenkonun [88;89], M. Zaalovun [92] məqalələri çap edilmişdir. Əksər hallarda, tarixi süjetlərin canlı şahidləri tərəfindən yazılan və daha çox diyarşünaslıq xarakteri daşıyan bu kiçik həcmli məqalələr faktiki material bolluğu, problemə "daxildən yanaşma" ilə seçilir və tədqiqat nöqteyi-nəzərindən müəyyən maraq doğurur. Adı çəkilən müəlliflər rəsmi şəxslər olduğundan onların əsərlərində almanların Qafqazda, o cümlədən Azərbaycanda məskunlaşmasının Rusiya imperiyası və Qafqaz tarixində yeri, rolu və əhəmiyyəti haqqında söylənilən fikirlər, əksər hallarda, rəsmi dövlət orqanlarının nəzər-nöqtəsini əks etdirmişlər.

DOI:10.30546/gdu.3.2024

***Alman koloniyalarının tarixi Sovet tarixşünaslığında***

Çar Rusiyasının şovinist ruhlu tarixçiləri tərəfindən irəli sürülən “antialman” konsepsiyanın ənənələri 1920-1940-cı illərdə sovet tarixşünaslığında davam etdirildi: XX əsrin 20-30-cu illərində SSRİ-də stalinizm repressiyalarının başlandığı və “daxili düşmən” axtarışı şəraitində yeni siyasi şablon yarandı və bu şablona görə SSRİ-də yaşayan hər hansı bir alman, xüsusən də alman mənşəli hərbçi dövlətin potensial düşməni,Almaniyanın casusu hesab olunurdu. Almanlara, o cümlədən xaricdən gələn əhaliyə bu cür münasibətin formalaşmasında sovet tarixşünaslığının “psevdomarksist cərəyanı”nın banisi M.N.Pakrovskinin əsərlərinin böyük təsiri olmuşdur. Rusiya tarixini təhlil etdikdən sonra M.N.Pakrovski belə bir qlobal nəticəyə gəlir ki, “Rusiya əcnəbilər tərəfindən kölə vəziyyətinə salınmışdır” və bu prosesdə o, xüsusən XVIII əsrin əvvəllərindən Rusiyada kök salmış alman mənşəli hərbçilərin, alimlərin, məmurların “tarixi rolunu” vurğulayır [111, s.86,87]. XX əsrin 20-30-cu illərində formalaşan bu tarixşünaslıq şablonu sonralar İ.Nikitinskinin [15] və P.Sofinovun [16] əsərlərində davam etdirilmişdir . Adı çəkilən müəlliflər əsərlərində Rusiya, o cümlədən Azərbaycan alman kolonistlərinin simasında yalnız pangermanizmə xidmət edən “casus” görürdülər.

İkinci Dünya müharibəsindən sonrakı dövrdə, xüsusən də 1950-ci illərdən sovet almanlarına qarşı rəsmi orqanların münasibətlərində müəyyən yumşalma müşahidə olunsa da, “alman problematikası” hələ də arzuolunmaz sayılırdı. Hakimiyyət orqanları hər vasitə ilə Rusiyada 250 ildən, Azərbaycanda 120 ildən artıq bir dövrdə yaşamış alman əhalisinin tarixini unutdurmağa çalışırdılar. Məhz bunun nəticəsidir ki, müharibədən sonrakı illərdə də sovet tarixşünaslığında Qafqaz almanlarının tarixinin bütün məsələlərini kompleks şəkildə əks etdirən heç bir fundamental əsər yazılmamışdır. Baxdığımız dövrdə nəşr edilən P.V.Ququşvilinin [84;85], S.A.Sumbatzadənin [115], A.M.Umayevin [116], T.T. Vəliyevin [40], Q.V.Pipiyanın [107;108], və sair sovet tədqiqatçılarının əsərlərində [96;101;102;] Azərbaycan almanlarının sosial-iqtisadi, siyasi, mədəni həyatına dair müxtəlif fraqmentar məlumatlar verilir.

1970-ci illərdə Sovet tarixşünaslığında Qafqazın ayrı-ayrı regionlarında yaşamış alman əhalisinin tarixinə həsr olunmuş ilk tədqiqat əsərləri işıq üzü gördü. Məlumdur ki, sovet dövründə almanlara “frist”, “faşist”, “casus” və sair kimi damğalar vurulmuşdu və sovet almanlarının tarixinin tədqiq olunması birbaşa siyasi məqsədli sifarişlərə xidmət edirdi. 1974-cü ildə işıq üzü görmüş Q.X. Mandjqaladzenin “Zaqafqaziyada alman kolonistləri (1817-1920-ci illər)” adlı əsəri məhz bu qəbildəndir [103]. Baxmayaraq ki, monoqrafiyada Gürcüstan və Azərbaycanda yaranan koloniyaların sosial-iqtisadi, mədəni həyatına dair maraqlı faktlara rast gəlinir, siyasi sifariş xarakteri daşıyan bu əsərdə almanların bütün həyat fəaliyyətinin pangermanizmin planlarına xidmət etdiyi vurğulanır, almanlara “casus”,”diversant” damğası vurulur. Öz əsərində çarizmin Qafqaz almanlarına qarşı diskriminasiya siyasətinin səbəblərini araşdıran Q.X.Mandjqaladze baxdığımız problemə toxunaraq sübut etməyə çalışmışdır ki, çarizmin Cənubi Qafqaz almanlarına qarşı apardığı ayrı-seçkilik siyasəti almanların Rusiyanın maraqlarına zidd fəaliyyət aparması ilə bağlı idi. Q.X.Mandjqaladze Böyük Vətən müharibəsinin ən ağır çağlarında - 1942-ci ildə Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşları İ.Nikitinski və P.Sofinov tərəfindən sırf təbliğat məqsədilə yazılmış əsərlərə [104;105] istinadən qeyd etmişdir ki, guya Cənubi Qafqaz almanları hələ Birinci Dünya müharibəsi ərəfəsində və müharibə illərində Almaniya kəşfiyyatının tapşırıqlarını yerinə yetirirdilər, «rus ordusunda xidmətdən yayınır, bilərəkdən kənd təsərrüfatında, sənaye müəssisələrinin fəaliyyətində sabotaj yaradır, cəbhə üçün lazım olan əmlakı hökumət dairələrindən gizlədir və sair düşmənçilik aktlarında iştirak edirdilər» [37, s.19,27]. “Soyuq müharibə”nin qızğın dövründə yazılmış bu əsərdə alman kolonistlərinin tarixi təhrif olunmuş şəkildə əks etdirilir və bugünkü reallıq üçün qəbul edilməzdir.

DOI:10.30546/gdu.3.2024

***Alman koloniyalarının tarixi post-sovet tarixşünaslığında***

SSRİ dağıldıqdan sonra postsovet respublikalarında almanların məskunlaşması probleminə tədqiqatçıların marağının artdı. Bu baxımdan Azərbaycanda mövcud olmuş alman koloniyalarının tarixinin tədqiq edilməsində yerli tədqiqatçılar nisbətən daha çox fəallıq göstərmişlər. Onların arasında Ç.Abdullayevin, B.Quliyevanın, Q.Cavadovun, E.Kərimovun, N.İbrahimovun, K.Əliyevin, M.Cəfərlinin, H.Verdiyevanın, T.Axundovanın, S.Zeynalovanın, T.Hümbətovanın əsərlərini qeyd etmək olar. 1990 - cı illərin əvvəllərində Azərbaycanda mövcud olmuş 2 əsas və 6 sonradan yaranan alman koloniyalarının tarixinə həsr olunmuş bir neçə əsər işıq üzü gördü.1991 ci ildə nəşr edilən Ç. Abdullayevin və B. Quliyevanın « Almanlar Azərbaycanda"adlı kitabı referativ xarakter daşısa da, ilk dəfə olaraq Azərbaycan almanlarının tarixi problematikası tədqiqatçıların diqqətinə çatdırıldı [41].

1990-1995-cı illərdə Q. Çavadov [27; 28; 90] , E. Kərimov [97] kimi etnoqrafların Azərbaycan almanları haqqında məqalələri çap edilmişdir ki, bu məqalələrdə qısa şəkildə almanların adət və ənənələri, mentaliteti ilə bağlı məsələlər, həmçinin təsərrüfat həyatının bəzi məqamları öz əksini tapmışdır.

Özü şərabçılıq üzrə mütəxəssis olan N. İbrahimovun "Azərbaycan tarixinin alman səhifələri" adlı kitabı Azərbaycanın alman əhalisinin təsərrüfat – məişət məsələlərinə, koloniyalarda üzümçülüyün və şərabçılığın inkişafı tarixinə həsr olunmuşdur [95].Təsviri xarakter daşıyan, heç bir ilkin mənbələrə əsaslanmayan, bədii – publisitik stildə yazılan, Azərbaycan almanlarının tarixini səthi şəkildə əks etdirən bu əsərdə Şimali Qafqaz və Gürcüstanda mövcud olmuş alman koloniyalarının tarixinə, demək olar ki, toxunulmamışdır.

Tarix elmləri doktoru K.Əliyev Azərbaycanın Yelenendorf və Annenfeld koloniyalarının tarixinə həsr olunmuş iki kitab çap etdirmişdir [73;74]. Epistolyar materiallar əsasında yazılan və müəyyən dərəcədə xatirə xarakteri daşıyan bu kitablarlar Qafqaz almanlarının tarixinin tədqiqi zamanı narrativ mənbə kimi böyük rol oynayır.

Azərbaycan almanlarının stalinizm dövründə siyasi həyatı barədə M. Cəfərlinin apardığı tədqiqatlar çox dəyərlidir [91]. Əsərin birinci fəsilində müəllif almanların Azərbaycanda, o cümlədən Cənubi Qafqazda məskunlaşması prosesini tarixi ekskurs şəklində işıqlandırmış və Azərbaycanda yaşayan alman kolonistlərinin 1920-1941-ci illərdə stalinizm repressiyalarına məruz qalması, onların kütləvi şəkildə Sibirə və Mərkəzi Asiyaya deportasiya edilməsini arxiv sənədləri əsasında mükəmməl şəkildə tədqiq etmişdir.

Tədqiqatçı H.Y.Verdiyeva "XIX əsrin ilk 30-illiyində çarizmin Şimali Azərbaycanda köçürmə siyasəti"adlı çox dəyərli əsər yazmışdır [81]. Monoqrafiyanın fəsillərindən biri alman kolonistlərinin Şimali Azərbaycanda məskunlaşmasına, onların sosial-iqtisadi, mədəni-dini həyatının bəzi məsələlərinə həsr olunmuşdur. Müəllifin "Almanlar Şimali Azərbaycanda"adlı monoqrafiyasında əsas tədqiqat obyekti XIX-XX əvvəllərində çarizmin Şimali Azərbaycanda apardığı köçürmə siyasəti olduğundan əsərdə alman kolonistlərinin tarixi yalnız köçürmə siyasəti prizmasından təhlil edilmişdir [82].H.Y.Verdiyevanın adı çəkilən hər iki monoqrafiyasında almanların Qafqaza, eləcədə Azərbaycana köçməsinin ilkin tarixi şərtlərinə və məskunlaşma prosesinə dair fraqmentar məlumatlar verilir.

T. Axundovanın "XIX-XX əsrin əvvəllərində Azərbaycanın alman kolonistləri" adlı monoqrafiyası Azərbaycan almanlarının inqilaba qədərki dövrünə həsr olunmuş ilk geniş tədqiqat əsəridir [75]. Bu kitabda T.Axundova almanların Azərbaycana köçməsi və yerləşməsi, alman koloniyalarında kənd təsərrüfatının, sənayenin inkişafı, alman əhalisinin mədəni həyatı, məişəti ilə bağlı bir sıra məsələləri işıqlandırmışdır. Əsərdə Azərbaycan almanlarının tarixinin tədqiqi fonunda Qafqaz alman koloniyalarının da tarixinə dair ümumi məsələlərə ötəri toxunulmuşdur.

DOI:10.30546/gdu.3.2024

Son illər alman koloniyalarının tarixi ilə maraqlananların dairəsi genişlənmiş, araşdırmalara tələbələr, magistrlər də qoşulmuşdur.2002-ci ildə S.M.Zeynalovanın "Azərbaycanın alman koloniyaları. 1919-1941-ci illər" adlı kitabı işıq üzü gördü [92]. Magistr dissertasiyasının əsasını təşkil edən bu kitabda Azərbaycanda mövcud olmuş alman koloniyalarının tarixinin bir sıra məsələlərinə toxunulub, amma hadisələrin və faktların dərin tarixi təhlili verilməmişdir. Kitabın birinci hissəsi inqilaba qədərki, dövrü əhatə edir və kitabda üzümçülüyün inkişafına, üzümçülüklə, şərabçılıqla bağlı kooperativlərin, müəssisələrin fəaliyyətinə daha çox yer verilib. Bir çox vacib məsələlərə, məsələn almanların siyasi həyatına dair probemlərə ötəri toxunulub, bu məsələlərin mahiyyəti açılmayıb. Müəllifin əsas tədqiqat obyekti Azərbaycan almanlarının 1920-1941-ci illərə aid tarixi olduğundan sovet dövrünə həsr olunmuş hissənin yazılmasında daha çox arxiv sənədlərindən istifadə monoqrafiyanın əhəmiyyətini bir qədər artırmışdır. Son illər Qafqazda baş verən hadisələr və bu regionun tarixinin kompleks şəkildə öyrənilməsinə marağın artmaşı fonunda S.M.Zeynalova "Almanlar Qafqazda" adlı monoqrafiyasında Qafqaz almanlarının tarixinə kompleks yanaşmağa cəhd etmişdir [94]. Monoqrafiyanın çox hissəsi Qafqaz almanlarının 1920-1941-ci illərə aid tarixinə həsr olunmuşdur.Azərbaycan alman koloniyalarının tarixi bu monoqrafiyada geniş arxiv sənədləri və sair mənbələr əsasında əks olunsa da, Gürcüstan və Şimali Qafqaz almanlarının tarixinə aid hissə daha çox narrativ materiallar əsasında tədqiq olunmuşdur və bu səbəbdən referativ xarakter daşıyır.

Həvəskar tədqiqatçı T.F.Hümbətovanın kitabları Cənubi Qafqaz almanlarının ictimai-siyasi, dini həyatına həsr olunmuşdur [86;87]. Publisistik stildə yazılan bu əsərlərdə xronoloji ardıcıllıq və sistemli yanaşma prinsipinə riayət olunmasa da, müəllif Cənubi Qafqaz almanlarının tarixinə dair bəzi maraqlı faktları elmi dövriyyəyə buraxmışdır.

Qafqazda alman məskunlaması tarixinin tədqiqatçısı prof.İ.K.Ağasiyevin əsərləri ümumən Qafqaz alman koloniyalarının tarixinə həsr olunsa da, təbii ki, bu əsərlərdə Azərbaycandakı koloniyaların da tarixinin bir sıra məsələləri işıqlandırılmışdır.

2009-cu ildə İ.K.Ağasiyevin "XVIII əsrin sonu-XX əsrin əvvəllərində Qafqazda alman məskunlaşması" adlı monoqrafiyası çap olundu [4]. Üç fəsildən ibarət olan tədqiqat işində XVIII əsrin sonlarından Qafqazda məskunlaşmağa başlamış alman əhalisinin sosial-iqtisadi, siyasi, mədəni və dini həyatının aktual məsələləri işıqlandırılır. Müəllif geniş arxiv materialları və sair yazılı mənbələr əsasında XVIII əsrin sonundan XX əsrin əvvəllərinə qədərki dövrdə Şimali və Cənubi Qafqazda mövcud olmuş 250-yə yaxın alman koloniyasının fəaliyyət xüsusiyyətlərini göstərmiş, regionun inkişafında onların roluna obyektiv qiymət vermişdir.

"Qafqazın alman əhalisi (İctimai – siyasi həyatı, 1860 – 1920-ci illər)" adlı monoqrafiyasında [14] İ.K.Ağasiyev bu monoqrafiyada Azərbaycan alman koloniyaıları tarixinin ən maraq doğuran məsələlərini- alman kolonistlərinin Birinci Dünya müharibəsinə münasibəti və müharibədə iştirakı, çarizmin almanlara rəğmən yürütdüyü ədalətsiz, mürtəce siyasəti, qərb quberniyalarda yaşayan almanların ictimai-siyasi məsələləri, Almaniyanın "Şərq planı"nda Cənubi Qafqaz alman əhalisindən istifadə etməsi və sair maraqlı məsələlər işıqlandırılmışdır.

2011-ci ildə Almaniyada İ.K.Ağasiyevin Qafqazda alman koloniyalarının yaranma tarixininə həsr olunmuş monoqrafiyası capdan çıxdı [46].Bu monoqrafiya əsasən alman əhalisinin iqtisadi-sosial həyatına, onların Azərbaycanda sosial uyğunlaşma məsələlərinə həsr olunmuşşdur.

2013-cü ildə Azərbaycan-Gürcüstan münasibətlərinə həsr olunmuş kollektiv monoqrafyada İ.K.Ağasiyevin Azərbaycanda vı Gürcüstanda almanların məskunlaşması tarixinə həsr olunmuş fəsildə alman kolonistlərinin Cənubi Qafqazın yerli azərbaycanlı və gürcü əhalisi ilə münasibətləri əks olunmuşdur [18].

İ.K.Ağasiyevin elmi araşdırmalarının ən qiymətli nəticəsi kimi 2016-ı ildə Türkiyədə çap olunan monoqrafiyanı hesab etmək olar [47].

DOI:10.30546/gdu.3.2024

Monoqrafiyanın "Orta əsrlərdə Qərbi Avropa torpaqlarında almanların məskunlaşması" adlı birinci fəsildə almanların Rusiya imperiyası ərazisində XIII əsrdən məskunlaşmağa başladığı vurğulanır.Eyni zamanda, müəllif vurğulayır ki, onların Rusiyada kütləvi məskunlaşması XVIII əsrin ortalarından başlayıb: XVIII əsrin ikinci yarısında çariça II Yekaterinanın apardığı siyasət nəticəsində almanların sayı 300 minə çatmışdı. XVIII əsrin sonlarında Rusiya ilə Osmanlı dövləti arasında gedən müharibələr Rusiyanın qələbəsi ilə başa çatdı və nəticədə Şimali Qafqaz Rusiyaya birləşdirildi. Çar hökuməti Şimali Qafqazda möhkəmlənmək niyyətində idi və bu məqsədlə məskunlaşdırma siyasətini həyata keçirməyə başladı.Lakin XVIII əsrin sonlarında Qafqaza sürgün edilən almanlar bu ərazidə məskunlaşa bilmədilər. XIX əsrin əvvəllərində Cənubi Qafqazın işğalı almanların məskunlaşması üçün münbit şərait yaratdı.

"Qafqazın Rusiya imperiyası tərəfindən işğalı və almanların məskunlaşmasının başlanğıcı" adlı monoqrafiyanın ikinci fəsli Qafqaz tarixinin aktual məsələlərindən birinə - almanların Qafqaza köçünün səbəblərinin tədqiqinə həsr edilmişdir. Müəllif qeyd edir ki,

1813-cü ildə Cənubi Qafqazın böyük bir hissəsi Rusiyaya birləşdirildi və miqrasiya siyasətinin istiqamətlərindən biri də Cənubi Qafqaz oldu. Sürətlə Cənubi Qafqazda almanların məskunlaşması başladı. Müəllif qeyd edir ki, Qafqaza köçən almanların köməyi ilə Rusiya burada öz iqtisadi, sosial, siyasi dayaqlarını möhkəmləndirmək istəyirdi.

Monoqrafiyanın üçüncü fəsli "XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində almanların Qafqaza kütləvi şəkildə köçürülməsi: səbəblər və nəticələr" adanır və bu fəsil XIX əsrin ikinci yarısında Almaniya ilə Rusiya arasında qarşılıqlı münasibətlərə "Rusiya almanları" amilinin təsiri probleminə həsr edilmişdir.

Müəllif 1871-ci ildə Birləşmiş Almaniyanın yaradılmasına qədər çar hökumətinin alman əhalisinə müsbət yanaşdığını və dövlət əhəmiyyətli planlarının həyata keçirilməsində onlara arxalandığını vurğulayır. LakinVahid Almaniyanın yaranması ilə birlikdə alman məskunlaşması ilə bağlı çarizmin siyasətində nəzərəçarpacaq dəyişikliklər baş verdi. Bu, təkcə Almaniyanın Rusiyaya qarşı təcavüzkar siyasəti ilə deyil, həm də qərb vilayətlərində, Şimali Qara dəniz hövzəsi, Qafqaz və digər strateji bölgələrdə alman əhalisinin sayının sürətlə artması ilə bağlı idi. Beləliklə, çar hökumətinin ölkənin alman əhalisi ilə münasibətlərində böhran yarandı və bu hal tarixşünaslığa "alman məsələsi" kimi düşdü.Müəllif qeyd edir ki. "alman məsələsi"nin müzakirəsinin intensivliyi bu dövrdə dəyişkən olan Rusiya-Almaniya münasibətləri ilə birbaşa bağlı idi.

Fəsildə qeyd olunur ki, II Nikolayın hakimiyyətə gəlməsindən sonra alman əhalisinə münasibət bir qədər liberal xarakter aldı. Lakin Rusiyanın "Antanta"ya girməsindən az sonra Rusiya-Almaniya münasibətləri gərginləşdi və "alman məsələsi"nin müzakirəsi parlamentə keçdi. 1910-cu ildə baş nazir P.A. Stolıpin alman elementinin məhdudlaşdırılması haqqında qanun layihəsi hazırladı, amma onun öldürülməsi ilə bu layihə kağız üzərində qaldı. Sonrakı illərdə Rusiya ilə Almaniya arasında münasibətlər kəskinləşdi və bu, 1914-cü ilin yayında qanlı müharibə ilə nəticələndi – müharibə çara "alman məsələsi"ni hərbi-cəza üsulları ilə həll etməyə imkan verdi.

Monoqrafiyanın "Birinci Dünya müharibəsi illərində Qafqazın alman koloniyalarının həyatı" adlı dördüncü fəslində I Dünya müharibəsi zamanı çar hakimiyyəti ilə alman kolonistləri arasında əlaqəyə dair suallar diqqətlə araşdırılmışdır. Qeyd etməliyik ki, postsovet respublikalarının alman məskunlaşması ilə bağlı tarixşünaslığında bu problem üzrə çox mübahisəli fikirlər söylənilmişdir. Əsas müzakirə obyekti Rusiya imperiyasında yaşayan almanların öz tarixi vətəni olan Almaniyaya münasibəti məsələsidir. Bu Fəsildə müəllif arxiv sənədləri əsasında Rusiya almanlarının I Dünya Müharibəsi illərində onlar üçün ikinci vətən olan ölkənin - Rusiyanın tərəfində olduqlarını göstərir.

DOI:10.30546/gdu.3.2024

Monoqrafiyanın dördüncü fəslində həmçinin çarizmin süqutundan sonra Qafqaz almanlarının ictimai-siyasi həyatının açılmamış problemlərindən bəhs edilir. 1917-ci ilin fevralında Rusiyada inqilab oldu və nəticədə ölkədə bəzi demokratik dəyişikliklər baş verdi. Lakin inqilab yeniliklərlə yanaşı, iqtisadi və siyasi xaos da gətirdi. Qafqazda erməni millətçiləri azərbaycanlılara və digər xalqlara qarşı təcavüzə başladılar. Almanlar da bu təcavüzün hədəfinə çevrilmişdi. 1917-1918-ci illərdə ermənilər dəfələrlə almanların yaşayış məntəqələrinə hücum etdilər. Almanların bir qismi öldürüldü, bir qismi isə yaralandı, onların iqtisadiyyatı böyük itkiyə məruz qalıb. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması alman əhalisini erməni hücumlarından xilas etdi.

Bu fəsildə müəllif 1918-1920-ci illərdə Azərbaycan və Gürcüstan respublikalarının fəaliyyəti dövründə alman əhalisinin ictimai-siyasi həyatının mühüm məsələlərini də araşdırmışdır.Müəllif vurğulayır ki, Antanta ölkələri keçmiş çar Rusiyası ərazisində yaradılmış dövlətləri tanımaq istəmirdilər. Bu səbəbdən, yeni respublikalar Almaniya və onun müttəfiqləri ilə sıx əlaqələr qurmağa başladılar. Azərbaycan Osmanlı dövləti ilə hərbi müqavilə bağladı və bu, Azərbaycanın milli maraqlarına cavab verirdi. Gürcüstan-Almaniya yaxın münasibətləri Gürcüstanın faktiki işğalı ilə nəticələndi: Almaniya Gürcüstandan istifadə edərək öz təsirini bütün Qafqaza yaymaq istəyirdi və işdə Almaniya Cənubi Qafqazda yaşayan alman əhaliyə böyük ümid bəsləyirdi. Fəsildə Azərbaycan alman əhalisinin Almaniyanın siyasətinə münasibəti konkret sənədlərlə öz əksini tapmışdır. Yalnız 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra erməni terrorçularına layiqli cavab verildi və alman əhalisinin azad inkişafı üçün şərait yarandı.

Monoqrafiyanın "Avropa lüteran missionerləri, ermənilər və "erməni məsələsi" adlanan beşinci fəslində XIX-XX əsrlərdə Qafqaz alman əhalisinin dini həyatının bəzi problemlərindən bəhs edilir. Müəllif dinin alman xalqının həyatında böyük rol oynadığını və Qafqaz almanlarının əksəriyyətinin lüteran olduğunu bildirir.

Alman əhalisi arasında islahatçılar, piyetistlər, mennonitlər, stundistlər və digər protestant sektaların da olduğu göstərilir, bu sektalar arasında gərgin mübarizənin getdiyi, şar hökumətinin siyasətinin həmin sektaların ləğvinə və bütün Qafqaz almanlarının lüteran kilsəsi ətrafında birləşməsinə yönəldiyi vurğulanır.

Fəsildə müəllif qeyd edir ki, XIX əsrin birinci yarısında Qafqaz almanlarının sosial-iqtisadi həyatındakı problemlər onların dini həyatının qeyri-müəyyənliyi ilə bağlı idi və XIX əsrin ortalarında dini problemlərin həlli alman xalqının iqtisadi inkişafı üçün müsbət şərait yaratdı.

Bu fəsildə həmçinin Qafqazda Bazel evangelist missionerlərinin türk-müsəlman xalqları arasında xristianlığın yayılması ilə bağlı fəaliyyətindən bəhs edilir. Müəllif bu fəaliyyətdə xristian missionerlərin ermənilərlə əməkdaşlığına xüsusi diqqət yetirmişdir. XIX əsrin sonlarında saxta "erməni məsələsi" ətrafında mübarizə kulminasiya nöqtəsinə çatanda erməni din xadimləri Almaniyanın dəstəyini qazanmaq üçün lüteranlıqdan istifadə etməyə çalışdılar, lakin Almaniya erməni millətçilərinə dəstək vermədi və ermənilər Qafqazda yaşayan almanlara qarşı terror aktlarına başladılar.

Beçinci fəsildə 20-ci əsrin əvvəllərində erməni terrorçularının Azərbaycanda yaşamış alman kolonistlərinə qarşı törətdikləri qanlı əməllərdən bəhs edilir. "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilərin əsas məqsədi Cənubi Qafqazın türk-müsəlman əhalisini məhv etmək, onun torpaqlarında öz dövlətlərini yaratmaq idi. "Erməni məsələsində" Almaniya ədalətli şəkildə erməni lobbisini dəstəkləmədiyindən və almanlar azərbaycanlılara rəğbət bəslədiklərindən Cənubi Qafqazın alman əhalisi də erməni terrorçularının hədəfinə çevrildi. Məqalədə ermənilərin alman müstəmləkəçilərinə qarşı törətdiyi terror aktları haqqında onlarla sənədli faktlar verilir.

Monoqrafiyanın "Alman kolonistlərinin ailə, məişət və mədəni həyatı" adlı altıncı fəslində XIX əsrin əvvəllərində Cənubi Qafqazda məskunlaşmış alman kolonistləri ilə yerli azərbaycanlı

DOI:10.30546/gdu.3.2024

və gürcü əhalisi arasında münasibətlərin təhlili verilmişdir. Müəllif monoqrafiyada Azərbaycan və gürcü xalqları və alman kolonistləri arasında münasibətlərin dostluq və bir-birini tamamlayıcı xarakter daşıdığını qeyd edir.

Monoqrafiyada həmçinin XIX əsrdə və XX əsrin əvvəllərində alman müstəmləkələrində məktəb işinin formalaşdırılması problemi nəzərdən keçirilmiş, çar hökumətinin milli siyasətinin almanların və başqa xalqların assimilyasiyasına yönəldiyi göstərilmişdir.

Adı çəkilən monoqrafiyalardan savayı İ.K.Ağasiyev Qafqazda və Azərbaycanda alman koloniyalarının tarixinə 50-dən artıq məqalə həsr etmişdir.Bu məqalələri mövzular üzrə aşağıdakı qruplara bölmək olar:

1) almanların Azərbaycanda məskunlaşmasının səbəb və istiqamətləri haqqında;
2) alman kolonistlərinin yerli təbii və etnik şəraitə adaptasiyası problemləri haqqında;
3) almanların iqtisadi həyat və fəaliyyəti haqqında;
4) almanların mədəni həyatı haqqında;
5) almanların dini – mənəvi həyatı haqqında;
6) Çar Rusiyasının siyasətində almanların yeri haqqında;
7) Alman əhalisinin Azərbaycan Xalq CümhuriyAyəti dövründə ictimai-siyasi və mədəni həyatı haqqında;
8) Alman kolonistlərinin erməni daşnakları ilə münasibətləri haqqında;
9) Alman kolonistlərinin Sovet Azərbaycanı dövründə ictimai-siyasi həyatı və Qazaxstana deportasiyası haqqında və s.

Almanların Azərbaycana köçməsi və yerləşməsi barədə tarixşünaslıqda bəzən qeyri-obyektiv məlumatlara əsaslanan yanaşmaya rast gəlinir. Belə ki, almaniyalı araşdırmaçı E-M. Aux guya almanların Azərbaycana zorla gətirilməsi, onlara qarşı Azərbaycan əhalisinin mənfi münasibəti və yerləşdiyi ilk günlərdən almanlara guya ermənilərin dayaq durması və s.kimi qeyri-elmi fikirlər söyləmişdir [76]. İ.K.Ağasiyev almanların Azərbaycana köçməsi və yerləşməsi məsələsinə də bir neçə məqalə həsr edərək arxiv sənədləri əsasında E-M Auxun qeyri-elmi fikirlərinin əsassız olduğunu sübut etmişdir.İ.Ağasiyev göstərmişdir ki, almanlar Cənubi Qafqaza könüllü köç etmiş, köçməmişdən öncə onların nümayəndələri Azərbaycana gəlmiş, məskunlaşma yerinə baxış keçirmiş və bundan sonra 209 ailə Azərbaycanın qərb bölgəsinə məskunlaşmaq üçün gəlmişdir [50].Eyni zamanda, almanların Azərbaycana köçünün səbəblərini araşdıran tədqiqatçı bu məsələdə bəzi müəlliflərin yazdığı kimi,Napoleon müharibələrinin deyil, əksinə Napoleonun müharibədə məğlubiyyətindən sonra Baden-Vürtemberq ərazisində respublika qaydalarının ləğv olması və yenidən despot kral hakimiyyətinin bərpası lüteran kilsəsinə separatçı olan şvabları Cənubi Qafqaza köçməyə vadar etmişdir [10;124].Beləliklə, İ.K.Ağasiyev almanların Cənubi Qafqaza, o cümlədən Azərbaycana köçünün əsas səbəbi kimi sosial-iqtisadi, siyasi amillərin deyil, məhz dini amilin əsas rol oynadığını göstərmişdir [16]. Məsələyə çar Rusiyası hökuməti nöqteyi-nəzərindən baxan müəllif almanların köçündə çarizmin geosiyasi maraqlar güddüyünü, Rusiyanın işğal etdiyi Qafqazda özünə sosial-siyasi və dini dayaq yaratmaq niyyətləri olduğunu göstərmişdir [71].

Eyni zamanda, İ.Ağasiyev sübut etmişdir ki, almanlar heç də boş, istifadəsiz ərazilərə köçürülməmiş, onların yerləşdirildiyi ərazilərdə azərbaycanlı əhali yaşamış, 1804-1813-cü illərin I rus –İran müharibəsindən sonra onlar şarizmdən qaçarraq öz yaşayış yerlərini tərk edərək başqa ölkələrə - İrana və Osmanlı dövlətinə köçmüşlər.Belə ki, almanların Yelenendorf koloniyası azərbaycanlıların Xanlıqlar kəndi ərazisində, Annenfeld koloniyası isə köhnə Şəmkir şəhərinin ətraf ərazilərində salınmışdır.Köçmənlərin sosial tərkibinə toxunan İ.Ağasiyev onların heç də şəhər əhalisi olmadığını, aralarında əkinçilərin, sənətkarların, keçmiş hərbçilərin, hətta dezertirlərin, məhkum həyatı yaşayanların və s. olduğunu göstərmiş, bu günkü Göygöl və Şəmkir şəhərlərinin inkişafının alman kolonistləri ilə bağlı olmadığını, bu şəhərlərin əsasən 1940-cı

DOI:10.30546/gdu.3.2024

illərdən sonrakı dövrdə, yəni almanların deportasiyasından (1941) sonrakı dövrlərdə baş verdiyini göstərmişdir [17].

Alman koloniyalarının iqtisadi-təsərrüfat məsələləri həmişə maraq doğurmuşdur və İ.K.Ağasiyev bu problematikaya bir sıra məqalələr həsr etmişdir.Müəllifin məqalələrində almanların Azərbaycanda ilk məskunlaşdığı illərdə təsərrüfat həyatı qurmaq cəhdləri, onların müxtəlif təsərrüfat sahələri ilə - taxılçılıqla, ipəkçiliklə, tütünçülüklə, çəltikçiliklə məşğul olması, bu sahələrdə kolonistlərin uğursuzluğu və onun səbəbləri araşdırılmış, yalnız üzümçülüklə məşğul olduqdan sonra alman əhalisinin öz iqtisadi məkanını tapdığını göstərilmişdir [11;12; 44]. İ.K.Ağasiyev vurğulamışdır ki, üzümçülükdən irəli gələrək alman koloniyalarında şərabçılıq inkişaf etməyə başlamışdir və bəzi müəlliflərdən fərqli olaraq İ.K.Ağasiyev almanları Azərbaycanda şərabçılığın pionerləri saymır. Müəllifin fikrincə, hələ erkən orta əsrlərdən Azərbaycan Albaniyasında şərabçılıq inkişaf etmişdi.Tədqiqatçı almanların şərabçılıq sahəsində əməyinə yüksək qiymət verərək onları məhz şərabçılığın sənaye üsulu ilə inkişaf etdirməsini təqdirə layiq sayır [42].Müəllifin məqalələrində üzümçülük və şərabçılığın XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində yüksək səviyyəyə çatdığını vurğulamış, Hummel qardaşları və Forer qardaşları kimi firmaların məhsulunun Rusiya imperiyasının Uzaq Şərqdən Peterburqadək bütün ərazilərində satıldığını, Avropa ölkələrinə ixrac olunduğunu göstərmişdir [53].

İ.K.Ağasiyev göstərir ki, şərabçılığın inkişafı kolonistlər arasında sosial təbəqələşməyə, iri firmalardan qorunmaq üçün sadə kolonist təsərrüfatlarının kooperativlərdə birləşməsinə gətirdi. Tədqiqatçının bir neçə məqaləsi hələ 1902-ci ildən koloniyalarda başlayan kooperasya hərəkatına, kooperativlərin fəaliyyətinə, xüsusən də 1930-cu illərin ortalarınadək mövcud olmuş ən böyük kooperativ-"Konkordiya"nın fəaliyyətinə həsr olunmuşdur[42;43]. İ.K. Ağasiyev Simens qardaşlarının fəaliyyətinə həsr etdiyi məqalələrdə onların Azərbaycanın alman koloniyaları ilə sıx şəkildə əməkdaşlıq etdiyi məqamları da işıqlandırmışdır [54;55;56].

İkram Ağasiyevin məqaələrinin bir qismi alman kolonistlərinin mədəni həyatının müxtəlif məsələlərinə həsr olunmuşdur.Bu məqalələr alman kolonistlərinin mədəni-məişət həyatının qurulmasına [57;60], alman milli mədəniyyətinin və milli identikliyin qorunub saxlanmasında alman ailəsinin roluna [69], alman mənşəli alimlərin Azərbaycan elminin inkişafına verdiyi töhfəyə [15], alman koloniyalarında həm çar Rusiyası, həm AXC, həm də Azərbaycan SSR dövründə məktəb işinin, təhsilin inkişafına [6;25;62], Azərbaycan xalqı ilə alman əhalisi arasındakı mədəni inteqrasiya və mədəni diffuziya proseslərinə həsr olunmuşdur. Müəllif almanların Avropa mədəniyyətinin daşıyıcıları kimi Azərbaycan mədəniyyətinə böyük töhfə verdiyini, eyni zamanda onların da Azərbaycan mədəniyyətindən daim faydalandığını vurğulamışdır [59;61].

İ.K.Ağasiyev alman əhalisinin AXC dövründə ictima-siyasi həyatına dair bir neçə məqalə yazmışdır.Bu məqalələrdə AXC hökumətinin alman kolonistlərinə rəğmən yürütdüyü siyasət [130], AXC-yə kolonistlərin münasibəti və AXC dövründə alman əhalisinin ictimai-siyasi həyatının aktual məsələri [131], alman kolonistlərinin Qafqaz İslam Ordusuna yardımı və Orduda xidməti haqqında maraqlı tarixi məsələlər araşdırlmışdır[128;129].

